# İŞĞALDAN AZAD EDİLMİŞ TORPAQLARIN HÜQUQİ STATUSUNUN BƏRPASI HAQQINDA

**Məmmədov Q.Ş.[1], Ağbabalı A.S.[2]**

*[1]Azərbaycan Milli Elmlər Akademiyası,*
*[2]Bakı Dövlət Universiteti*
*garibmammadov1@gmail.com*

Şanlı və müzəffər Azərbaycan Ordusu Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi altında 28 illik işğalda olmuş torpaqlarımızı 44 gün davam edən İkinci Vətən müharibəsində işğaldan azad etdi. Azad edilmiş ərazilərimizin bütün təbii komponentləri kimi torpaq örtüyünün öyrənilməsi müstəsna zərurət kəsb edir. Qarabağ iqtisadi rayonunda aşağıdakı torpaq tipləri yayılmışdır: yuyulmuş qəhvəyi dağ-meşə, tipik qəhvəyi dağ-meşə, bozqırlaşmış qəhvəyi dağ-meşə, mədəniləşmiş qəhvəyi dağ-meşə, tünd dağ-boz qəhvəyi, adi dağ-boz qəhvəyi, tünd dağ-şabalıdı, tipik qonur dağ-meşə, tipik qəhvəyi dağ-meşə, karbonatlı qəhvəyi dağ-meşə, yuyulmuş qəhvəyi dağ-meşə, bozqırlaşmış dağ-qəhvəyi, açıq dağ boz-qəhvəyi, dağ boz-qəhvəyi torpaqları, düzən və dağ ətəyi hissəsində isə tünd boz-qəhvəyi, subasar çəmən-meşə (tuqay), adi boz-qəhvəyi, çəmən boz-qəhvəyi, açıq boz-çəmən, boz-çəmən, subasar-çəmən, açıq boz-qəhvəyi, açıq boz, boz, bataqlı-çəmən, ibtidai boz, Tünd şabalıdı, adi şabalıdı, qədimdən suvarılan şabalıdı, çəmən-şabalıdı, tünd boz, suvarılan boz, subasar-çəmən (allüvial-çəmən) torpaq tip və yarımtipləri yayılmışdır.

İşğal dövründə torpaqların Qarabağda mövcud olmuş 7 kateqoriyası vandalcasına dəyişdirilmişdir. İşğalçılar torpaqların hüquqi rejimini və məqsədli təyinatını pozmuş və torpaqlardan ancaq əkinçilik, o cümlədə narkotik bitkilərin əkini üçün istifadə etmişlər. İşğala qədərki dövrdə bu ərazilərdə mövcud olmuş torpaq kateqoriyalarının sahəsi aşağıdakı kimi olmuşdur:

*I. Kənd təsərrüfatı təyinatlı torpaqlar (1992-ci ilin məlumatlarına görə).* - 336742 hektar təşkil edir. İşğalçılar bu torpaqlarda təyinat dəyişikliyi edərək onların hamısını dənli bitkilər əkini, bir çox hallarda isə narkotik bitkilər əkini altında istifadə etmişlər. Məhz bu torpaqlar hesabına Ermənistan Respublikasının taxıla olan ehtiyacının 30%-ni ödənilmişdir. Tezliklə ərazinin irimiqyaslı yerquruluşu planlarının hazırlanmalı, təbii-təsərrüfat sahələrinin sərhədləri dəqiqləşdirilməlidir.

*II. Yaşayış məntəqələrinin torpaqları* - 5592 hektar təşkil edir. Bundan 1.709 ha vətəndaşların yaşayış evləri, 3.668 ha isə ictimai tikinti altında olan torpaqlardır. Şəhərlərdə, qəsəbələrdə və kəndlərdə bütün yaşayış fondu dağıdılmışdır. Evlər, məktəblər, xəstəxanalar, zavod-fabriklər sökülmüş və yararlı materiallar Ermənistana daşınmışdır. Aparılacaq bərpa dövründə bütün bu yaşayış məntəqələrinin yenidən qurulması və əhalinin rahat evlərlə

təmin edilməsi, köhnə infrastrukturun bərpası ilə yanaşı yeni infrastrukturun qurulması planlaşdırılır. İlk dəfə olaraq Azərbaycanın bu ərazilərində smart-şəhər və smart kəndlər yaradılmaqdadır.

*III. Sanaye, nəqliyyat, rabit, müdafiə və digər* kateqoriyadan olan torpaqların istifadə rejiminə riayət olunmamış, ərazilər əkin məqsədilə istifadə olunmuşdur. Bütün nəqliyyat-kommunikasiya sistemi sıradan çıxarılmışdır. Cənab Prezidentin tapşırığına əsasən burada infrastrukturun bərpasına başlanmışdır. Bunlara misal olaraq Tərtər-Suqovuşan, Fizuli-Şuşa yollarının tikintisini, Fizuli şəhərində aeroportun tikintisinin başa çatdığını, Zəngilan rayonunda yeni aeroportun tikintisinin başladığını və s. göstərmək olar.

*IV. Xüsusi mühafizə olunan ərazilərin torpaqları* - 43947 ha təşkil edir. Laçın rayonu ərazisində yaradılmış Qaragöl Dövlət Təbiət Qoruğu (240,0) faunanın nadir cinslərinin mühafizəsi istiqamətində fəaliyyət göstərmişdir. Burada nadir heyvan cinslərindən olan qonur ayı, canavar, cüyür, çöl donuzu, çaqqal, porsuq, dağ keçilərinin mühavizəsi həyata keçirilmişdir. Zəngilan rayonu ərazisində təşkil olunmuş Bəsitçay (107,0 ha) Dövlət Təbiət Qoruğu həmçinin ümumi işğaldan azad edilmiş ərazilərimizdə olan Laçın (21.400,0 ha), Qubadlı (20.000,0 ha) və Arazboyu (2.200,0 ha) Dövlət Təbiət Yasaqlıqlarında cökə, palıd, ağcaqayın, yemişan, itburnu, ardıc, saqqız ağacı, şərq çinarı, ağyarpaq qovaq və adları qırmızı kitaba düşmüş ağac və kollarının mühafizəsinin öndə məsələlərdəndir. Bu ərazilərdə diametri bir metr, hündürlüyü 30m və yaşı 200 ilə yaxın olan çinarlar və Tuğay meşələrinin mühafizəsi təşkil olunmalıdır.

*V. Meşə fondu torpaqları* 246187 ha təşkil etmişdir. Meşələr də erməni vandalizminə məruz qalmışdır. Ən qiymətli ağacların əksər hissəsi kəsilərək, Ermənistana daşınmışdır. Digər tərəfdən yanacaq məqsədilə meşələr kəsilmiş və böyük açıq talalar əmələ gəlmişdir. Bu talalardan əsasən narkotik bitkilərin əkini üçün istifadə olunmuşdur.

*VI. Su fondunun torpaqlarının ümumi sahəsi* - 19800 ha olmuşdur. Burada böyük əhəmiyyətə malik olan və Azərbaycan hökuməti tərəfindən inşa edilmiş Sərsəng və Suqovuşan su anbarlarını və su-elektrik stansiyalarını qeyd etmək olar. Su fonduna həmçinin Bərgüşad, Həkəri, Tərtər, Araz çayının bir hissəsi, eləcə də digər kiçik çaylar və göllər daxildir. Erməni işğalçıları uzun müddət bu su anbarlarından istifadəyə imkan verməmiş və bu səbəbdən ətraf rayonlarda daima su qıtlığı yaranmışdır.

*VII. Ehtiyat fondu torpaqlarının* sahəsi əvvəllər 3.083 ha təşkil etmişdir. Lakin işğal dövründə ermənilərin yararlı torpaqlarda qurduqları müxtəlif müdafiə qurğuları, istehkamlar və səngərlərin hesabına bu torpaqların sahəsi xeyli artmışdır. Bu torpaqlarda tədqiqatlar aparılaraq areallı müəyyənləşdirilməli, kənd təsərrüfatı dövriyyəsinə qaytarılması üçün tədbirlər həyata keçirilməlidir.

Ən başlıca vəzifələrdən biri bölgədə torpaq islahatının həyata keçirilməsidir. Torpaq paylarının bal hektarla hesablanması üçün AMEA-nın



Ekologiya və torpaqşünaslıq elmləri XXI əsrdə. III Respublika Elmi Konfransı

Torpaqşünaslıq və Aqrokimya İnstitutunda, həmçinin BDU-nun Ekologiya və torpaqşünaslıq fakültəsində ilkin işlər başlanmış və hazırda bölgənin hər bir rayonu üçün bonitet balları hesablanması üzərində işlər görülməkdədir.

Torpaq islahatı zamanı torpaq payı alacaq və imtiyazlı şəxslərin siyahısı dəqiqləşdirilməli və torpaq ehtiyatlarının mülkiyyət formaları üzrə bölgüsü aparılmalıdır. Torpaq normaları bilindikdən sonra torpaqların ölçülüb mülkiyyətçilərə verilməsi prosesi başlanacaqdır. İnzibati ərazilər üzrə məskunlaşma prosesi getdikcə torpaq islahatı aparılaraq pay almaq hüququ olan vətəndaşlara torpaqlar ölçülüb verilmə bilər. 02 avqust 1996-cı ildən sonra doğulan vətəndaşlar işğaldan azad edilmiş ərazilərdə daimi yaşamağa gəldikdən sonra torpaq payının verilməsi daha doğru addım olar. Bu əhalinin öz keçmiş yaşayış yerinə geri qayıtmaları üçün ən yaxşı təşviqat olardı.